# Ermənistan və onun havadarları bu hadisənin ört-basdır edilməsinə çalışırdılar

## Prezidentin Xocalıda Soyqırımı Memorialı Kompleksinin təməlini qoymasının rəmzi mənası var

"Azərbaycan dövləti, dövlət qurumları, eyni zamanda xaricdə yaşayan azərbaycanlılar, bizim ictimai təşkilatlarımız və onların arasında Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərib. Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası dünyanın müxtəlif yerlərində aparılmışdır, bir çox tədbir, təqdimat həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Yəni biz bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün çox səy göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik. Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın".

→ 6

AZƏRBAYCAN

# Ermənistan və onun havadarları bu hadisənin ört-basdır edilməsinə çalışırdılar

## Prezidentin Xocalıda Soyqırımı Memorialı Kompleksinin təməlini qoymasının rəmzi mənası var

**"Prezident İlham Əliyev, Azərbaycan xalqı uzun illər Xocalıya ədalət istəyib və bu istiqamətdə beynəlxalq təşkilatlar qarşısında ciddi məsələlər qaldırılıb. Bununla bağlı 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası həyata keçirilir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat Prezidentin sözlərini xatırladıb: "Azərbaycan dövləti, dövlət qurumları, eyni zamanda xaricdə yaşayan azərbaycanlılar, bizim ictimai təşkilatlarımız və onların arasında Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərib. Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası dünyanın müxtəlif yerlərində aparılmışdır, bir çox tədbir, təqdimat həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Yəni biz bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün çox səy göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik. Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın".

Komitə sədri qeyd edib ki, Prezident İlham Əliyev Xocalı sakinləri ilə görüşərkən burada Xocalı Soyqırımı Memorialının təməlini qoyarkən bu faciənin Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəyini, bu qanlı cinayətin unudulmayacağını xatırladıb: "Dövlət başçısı canilərin, bu soyqırımını törədənlərin mütləq öz cəzalarına çatacaqlarına əminliyini ifadə etdi. Ölkə rəhbərinin bu çağırışları, Xocalı faciəsinin qurbanlarına ehtiramı onun nəinki sözlərində, əməli fəaliyyətində özünün aydın ifadəsini tapır. 44 günlük müharibə, 23 saatlıq antiterror tədbirləri bir daha göstərdi ki, Azərbaycan xalqı, ordusu öz şəhidlərinin qisasını almağa qadirdir".

Tahir Rzayev vurğulayıb ki, bir çox erməni cinayətkarlarının həbs olunması, qanun qarşısında cavab verməsi xocalılıların, eləcə də şəhidlərimizin qanının yerdə qalmadığını göstərir. "Dövlətimizin başçısının Xocalıya səfəri, Xocalı sakinləri ilə görüşü, şəhərin yenidən qurulması bu gün dünyanın diqqət mərkəzindədir. Dövlət başçısı bunu bir daha xatırladaraq bildirdi ki, Azərbaycanın üçrəngli bayrağı işğaldan azad olunmuş bütün ərazilərimizdə dalğalanır. Beş yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlər artıq qayıdıb. Bu il keçmiş məcburi köçkünlərin qayıdacağı yaşayış məntəqələrinin sayı 20-yə çatacaq, həm Xocalıda, həm Xankəndidə həyat bərpa ediləcək, o cümlədən Malıbəyli, Kərkicahan, Turşsu yaşayış məntəqələri də qurulacaq. Gələn il Ağdama da ilk köç baş tutacaq", - deyə o əlavə edib.

Qarabağ və Şərqi Zəngəzurda geniş vüsət almış tikinti-quruculuq işlərindən söz açan deputat bildirib ki, 32 ildən sonra şuşalılar da doğma yurdlarına qayıdacaq və mədəniyyət paytaxtımızda Türk Dövlətləri Təşkilatının fövqəladə Zirvə görüşü baş tutacaq. Bütün bunlar Prezident İlham Əliyevin qətiyyətindən, onun xalqına hörmət və ehtiramından xəbər verir. Cənab İlham Əliyev Xocalıda sakinlərlə görüşərkən bir daha dünyaya mesajını verdi və bildirdi ki, Xocalı soyqırımı qurbanlarının, həmçinin Vətən uğrunda həlak olmuş digər şəhidlərimizin qanı yerdə qalmadı, qisası alındı və bundan sonra da onların qanının yerdə qalmaması üçün səylərimizi əsirgəməyəcəyik. Bu, hər bir Azərbaycan vətəndaşını qürurlandırır. Xocalı faciəsi dünyada analoqu olmayan bir soyqırımıdır və bu qətliama qiymət verməmək, göz yummaq beynəlxalq normalara diqqətsizlik, bəşəriyyətə saygısızlıqdır. Prezident İlham Əliyev bunu dəfələrlə öz çıxışlarında, verdiyi bəyanatlarda səsləndirib və beynəlxalq təşkilatların, böyük dövlətlərin bu saygısızlığını bilavasitə bəşəriyyətə qəsd kimi qiymətləndirib.

Tahir Rzayev qeyd edib ki, Ermənistan bu gün yalançı soyqırımlar haqqında iddialar qaldırır və buna həqiqi don geydirməyə çalışır: "Ancaq dünyanın gözü qarşısında baş verən Xocalı soyqırımına etinasızlıq göstərilməsi, əlbəttə ki, nankorluq, nadanlıqdır. Cənab İlham Əliyevin Xocalı Soyqırımı Memorialının təməlini qoyması Azərbaycanın öz torpaqlarının sahibi olduğunu, şəhidlərinin xatirəsini daim əziz tutduğunu və onların qanının yerdə qalmaması üçün bütün səyləri həyata keçirdiyini dünyaya bir daha göstərdi.

Xocalı faciəsi bizim unudulmaz tariximiz, qan yaddaşımızdır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*